NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ

METODİKİ İŞLƏMƏ

# FÖVQƏLADƏ HALLAR ZAMANI DAXİLİ İŞLƏR ORQANLARININ İNZİBATİ FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Naxçıvan-2020

## Giriş

Fövqəladə hallar zamanı ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi böyük əhəmiyyət daşıyır. Təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, irimiqyaslı qəzalar və faciələr zamanı adətən, əhalinin həyatı və sağlamlığı, dövlətin və digər mülkiyyət sahiblərinin əmlakı real təhlükə qarşısında qalır, cəmiyyətin normal yaşayış şəraiti pozulur. Bu cür neqativ hallar asayişin qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üçün fövqəladə şərait yaradır.



Təbii, sosial və bioloji hadisələrin yaratdığı fövqəladə vəziyyət bəzən daxili işlər orqanlarının belə şəraitdə ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi kimi vəzifələri yerinə yetirmək üçün xüsusi hüquqi rejimin tətbiq olunmasını tələb edir. Daxili İşlər Nazirliyinin bütün şəxsi heyətinin belə çətin şəraitdə qətiyyətlə və bacarıqla hərəkət etməsi, şəxsi heyətin, silahın, texnikanın və digər maddi-texniki vasitələrin itirilməsinin qarşısının alınması olduqca zəruridir.

## 1. Təbii fəlakət anlayışı, fövqəladə halların növləri, onların yaranması zamanı ictimai asayişin qorunması və təhlükəsizliyin təmin edilməsi üzrə daxili işlər orqanlarının vəzifələri

Beynəlxalq coğrafi konqreslərin birində çıxış edən amerikalı alim P.Keyts aşağıdakı məlumatlara istinad edərək qeyd etmişdir: Təbii fəlakətlər nəticəsində dünya iqtisadiyyatına dəyən zərər hər il on milyard dollarla ölçülür. İtkilərin əksər hissəsi təmiz zərərdir, qalan hissəsi isə təbii fəlakətlərin qarşısının alınması və nəticələrinin yumşaldılması xərcləridir. Hər il dünyada fəlakət qurbanlarının sayı yüz minlərlə insana çatır, onların yarıdan çoxu iri miqyaslı təbii fəlakətlər zamanı ölür. Bütün dünyada təbii fəlakətlərin sayı artmaqda davam edir. Məhz buna görə onların təhlükəli təbiəti müxtəlif beynəlxalq dövlət orqanlarının, müəssisə və təşkilatların qüvvələrinin və ictimaiyyətin birləşməsini, insanların və əmlakın məhv olmasının qarşısını almaq üçün vaxtında tədbirlərin görülməsini tələb edir.

Dünyada belə fəlakətlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatlar yaradılır və uğurla fəaliyyət göstərir. Məsələn, Beynəlxalq xilasedicilər korpusu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA) və s. Beynəlxalq xilasedicilər korpusu 1981-ci ildə İtaliyada baş vermiş güclü zəlzələdən sonra yaradılıb. Onun ofisi Böyük Britaniyanın Marlou şəhərində yerləşir. Cenevrə şəhərində Beynəlxalq Koordinasiya Mərkəzi Birləşmiş Millətlər Təşkilatının himayəsi altında fəaliyyət göstərir. Bir çox onilliklər boyu Beynəlxalq Əmək Təşkilatının nəzdində Beynəlxalq İctimai Təhlükəsizlik Birliyi fəaliyyət göstərir. Bu təşkilat zərərli və təhlükəli sənaye sahələrində təhlükəsizliyin təmin olunmasının müasir problemlərini müzakirə etmək üçün mütəmadi olaraq tədbirlər keçirir. Beynəlxalq İctimai Təhlükəsizlik Birliyində kimya sənayesində baş verə biləcək xoşagəlməz halların, eləcə də xəstəliklərin qarşısının alınması üçün beynəlxalq bölmə yaradılıb.

Azərbaycan Respublikasında da təhlükəsizlik və fövqəladə hallar sahəsində son 25 il ərzində məqsədyönlü addımlar atılıb. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 10 aprel tarixli Fərmanı ilə Təhlükəsizlik Şurası yaradılıb. Təhlükəsizlik Şurasının iclaslarına Prezident sədrlik edir. Şuraya vitse-prezident, Milli Məclisin Sədri, Baş Nazir, Prezident Administrasiyasının rəhbəri, dövlət müşavirləri, Baş prokuror, Xarici İşlər naziri, Müdafiə naziri, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi və Daxili İşlər naziri daxildir. Prezident Administrasiyasının rəhbəri Təhlükəsizlik Şurasının fəaliyyətini təmin edir, onun iclaslarının

hazırlanmasına rəhbərlik edir. Təhlükəsizlik Şurasının ən vacib məsələlərindən biri əhəmiyyətli ictimai-siyasi, iqtisadi, ekoloji və digər nəticələrə səbəb ola biləcək fövqəladə halların qarşısının alınması, onların nəticələrinin aradan qaldırılmasının təşkili və s. üzrə operativ qərarları hazırlamaqdır.



Ölkəmizdə əhalinin təbii fəlakət-lərdən, texnogen xarakterli qəzalardan və yanğından qorunması, belə hadisələrin nəticələrinin aradan qaldırıl-ması məsələlərinin həll edilməsi, habelə mülki müdafiə sahəsində dövlət siyasətinin həyata keçirilməsi, xilaset-mə və bərpa işləri üzrə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, digər müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 dekabr tarixli Sərəncamı ilə Fövqəladə Hallar Nazirliyi yaradılıb. Bu Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanı ilə Naxçıvanda da Fövqəladə Hallar Nazirliyi yaradılıb. Qeyd edək ki, Nazirliyin qüvvələri ötən müddət ərzində respublika ərazisində subasmaya məruz qalan ərazilərdə baş verən yanğınların söndürülməsində, uçqun, torpaq sürüşməsi zamanı yaranan təhlükənin aradan qaldırılmasında, zərərçəkən əhaliyə ilkin tibbi xidmətin göstərilməsində, quş qripi mənbələrinin ləğv edilməsi və yayılmasının qarşısının alınmasında xilasetmə işlərini layiqincə yerinə yetirmişdir.

Nazirlik tərəfindən bir çox təbii fəlakətlərin dağıdıcı gücünü qiymətləndirmək üçün xüsusi şkala hazırlanıb və hazırda tətbiq olunur:

- küləyin sürətini təyin etmək üçün – 12 ballıq şkala;
- zəlzələnin gücünü ölçmək üçün - 9 ballıq şkala;
- AES-da qəzaları qiymətləndirmək üçün – 7 səviyyəli şkala.

Bunlardan əlavə yanğın və digər təbii fəlakətləri qiymətləndirmək üçün müvafiq şkalalar mövcuddur.

***Fövqəladə hal*** – insan tələfatına, insanların səhhətinə və ya ətraf mühitə ziyan vurulmasına, əhəmiyyətli maddi itkilərə və insanların həyat fəaliyyəti şəraitinin pozulmasına səbəb ola biləcək və ya səbəb olmuş hərbi əməliyyatlar, qəza, təbii və ya digər fəlakət nəticəsində müəyyən ərazidə yaranmış vəziyyətdir.

***Fövqəladə halların mənbəyi*** təhlükəli təbiət təzahürü, qəza və ya təhlükəli texnogen hadisə, insanlar, kənd təsərrüfatı heyvanları və bitkilər arasında geniş yayılan yoluxucu xəstəliklər, həmçinin müasir zədələyici vasitələrin tətbiqi nəticəsində yaranmış və ya yarana biləcək fövqəladə haldır.

Fövqəladə hallar, belə hallarda zərərçəkmiş və yaşayış şəraiti pozulan insanların sayına, maddi ziyanın miqdarına, həmçinin fövqəladə halların zədələyici amillərinin yayılma zonalarına görə hərbi, texnogen, təbii və ekoloji fövqəladə hallara bölünür.

***Hərbi xarakterli fövqəladə hal*** münaqişəli və ekoloji fövqəladə halların xüsusi qrupu olaraq, iqtisadiyyat obyektlərinə, nəqliyyat və mühəndis qurğularına, əhaliyə müasir zədələyici vasitələrin (nüvə, adi, geofiziki və yeni fiziki prinsiplərlə hazırlanmış silahlar) təsiri, həmçinin terror aktları nəticəsində müəyyən ərazidə insan tələfatına, insanların sağlamlığına və ətraf mühitə ziyan vurulmasına, əhəmiyyətli maddi itkilərə və insanların həyat fəaliyyəti şəraitinin pozulmasına səbəb ola biləcək və ya səbəb olmuş vəziyyətdir.





***Texnogen xarakterli fövqəladə hal*** texnogen xarakterli fövqəladə hal mənbəyinin yaranması nəticəsində müəyyən obyektdə, ərazidə və ya akvatoriyada insanların həyat fəaliyyəti şəraitinin pozulmasına, onla-rın həyat və sağlamlığına təhlükənin yaranmasına, əhalinin əmlakına, iqtisadiyyat obyekt-lərinə və ətraf mühitə ziyan vurulmasına səbəb ola biləcək və ya səbəb olmuş vəziyyətdir.

***Təbii xarakterli fövqəladə hal*** təbii xarakterli fövqəladə hal mənbəyinin yaranması nəticəsində müəyyən ərazidə və ya akvatoriyada insan tələfatına, insanların sağlamlığına və ətraf mühitə ziyan vurulmasına, əhəmiyyətli maddi itkilərə və insanların həyat fəaliyyəti şəraitinin pozulmasına səbəb ola biləcək və ya səbəb olmuş vəziyyətdir.

***Ekoloji xarakterli fövqəladə hal*** fövqəladə hal mənbəyinin yaranması nəticəsində müəyyən ərazidə və ya akvatoriyada ekoloji sistemin dağılmasına, insanların həyat fəaliyyəti şəraitinin pozulmasına və insan ömrünün qısalmasına səbəb ola biləcək və ya səbəb olmuş vəziyyətdir.

Fövqəladə hallar qismi, obyekt miqyaslı, ərazi miqyaslı və regional fövqəladə hallara bölünür.

***Qismi fövqəladə hal*** adətən, istehsalat binalarından kənara yayılmır. Bu zaman insanların gündəlik həyat şəraiti pozulur, həlak olanların və ya sağlamlığına zərər dəymiş insanların sayı 10 nəfər, yaxud ətraf təbii mühitə dəymiş ziyan və maddi itkilər minimum əmək haqqının 1000 misli qədər olur. Qismi fövqəladə hallar tez-tez təkrarlanmasa da, onların zədələyici amillərinin minimum göstəriciləri hətta bu fövqəladə hal səviyyəsini aşaraq daha ağır nəticələrə səbəb ola bilir.

***Obyekt miqyaslı fövqəladə hal*** obyektin ərazisindən kənara yayılmır. Fövqəladə hal nəticəsində həlak olanların və ya sağlamlığına zərər dəymiş insanların sayı 50 nəfəri ötmür, yaxud ətraf təbii mühitə dəymiş zərərin və maddi itkilərin həcmi minimum əmək haqqının 5000 mislini keçmir. Obyekt miqyaslı fövqəladə hallar tez-tez təkrarlanan fövqəladə hallara aid edilir.

***Ərazi miqyaslı fövqəladə hal*** şəhərin (rayonun) və ya regionun ərazisindən kənara yayılmır. Fövqəladə hal nəticəsində həlak olanların və ya sağlamlığına zərər dəymiş insanların sayı 50 nəfərdən çox olsa da 500 nəfəri ötmür, yaxud ətraf təbii mühitə dəymiş zərərin və maddi ziyanın həcmi minimum əmək haqqının 50000 mislindən artıq olmur.

***Regional fövqəladə hal*** ölkənin bütün ərazisini və ya bir neçə rayonunu əhatə edir, onun hüdudlarından kənara çıxmır. Föv-qəladə hal nəticəsində həlak olanların və ya sağlamlığına zərər dəymiş insanların sayı 500 nəfərdən çox olsa da 1000 nəfəri keçmir, yaxud ətraf təbii mühitə dəymiş zərərin və maddi ziyanın həcmi minimum əmək haqqının 50000 mislini keçsə də 1 (bir) milyon mislindən artıq olmur.

İnsanların həyatı və sağlamlığı üçün ciddi təhlükə yaradan fövqəladə hallardan biri də epidemiyadır.

***Epidemiya*** insanın hər hansı bir infeksion, yaxud invazion xəstəliyinin məlum ərazidə adi (sporadik) xəstələnmə səviyyəsindən xeyli artıq yayılmasıdır. Epidemiya zamanı yaşayış yerində (ölkədə, rayonda, kollektivdə) hər hansı infeksion xəstəlik qısa zamanda kütləvi şəkildə yayılır. Epidemiya dövründə vəba, taun və yatalaq kimi yoluxucu xəstəliklər xüsusilə təhlükəlidir. Epidemiya xəstəliyin kütləviliyi, yoluxma yollarının ümumiliyi və çoxluğu, inkubasiya dövründə xəstəliyin baş verməsinin eyni vaxta təsadüf etməsi və fasiləsizliyi, xəstəliyin ayrı-ayrı hallarında ərazi yaxınlığı ilə səciyyələnir.



Xəstəliyin xarakterindən asılı olaraq yoluxma əsasən, qida və su qəbulu zamanı (dizenteriya və qarın yatalağında), hava-damcı yolu ilə (qripdə), transmissiv yolla (malyariya və yatalaqda) ola bilər. Yoluxma yolunda infeksiyanı zərərsizləşdirmək və ya tamam məhv etməklə (məs. taun, tulyaremiya xəstəliyi zamanı gəmiriciləri qırmaq, xəstələri təcrid etmək və s.) və ya xəstəlik törədiciləri dezinfeksiya və dezinseksiya üsulları ilə məhv etməklə, eləcə də əhali arasında xəstəliyə qarşı kütləvi peyvənd vuraraq, immunitet yarat-maqla xəstəliyin qarşısını almaq olar.





***Epizootiya*** müəyyən ərazidə zaman və məkan üzrə irəliləyən, bir və ya bir neçə cinsdən olan mal-qaranın əksər hissəsində yayılan yoluxucu və ya parazitar

xəstəliklərdir. Xəstəlik, əsasən, epidemiya halında yayıldıqda epizootiya kimi qeyd edilir.

Ən təhlükəli epizootiyalara qarayara, dabaq, iribuynuzlu heyvanların vərəmi, quduzluq, taun və quş qripi kimi epidemiyalar aid edilir. Epizootiya infeksiya mənbəyi (xəstə heyvan və ya gizli daşıyıcı), törədicinin canlı daşıyıcılar və ya cansız təbiət obyektləri vasitəsilə ötürülməsi və infeksiyalara həssas heyvan-ların qarşılıqlı əlaqəsi nəticə-sində yarana bilir. Epizootiya təhlükəsi heyvanların kütləvi xəstələnməsi və ölümü ilə nəticələnən əhəmiyyətli iqtisadi itkilərlə bağlıdır. Dabaq, qarayara, quduzluq, xırda və iribuynuzlu heyvanların bruselyozu insanlar üçün ciddi təhlükə yaratdığından belə xəstəliklərin yayıldığı ərazilərdə epidemiyalarda olduğu kimi karantin qoyulur və rejim məhdudiyyətləri tətbiq olunur.

***Fövqəladə halların nəticələrinin aradan qaldırılması*** müvafiq fövqəladə hallar komissiyalarının rəhbərliyi altında yerli icra hakimiyyəti orqanları və yerli özünüidarə orqanları tərəfindən hüquqi-təşkilati formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların qüvvə və vasitələrilə fövqəladə hadisələrin baş verdiyi ərazilərdə həyata keçirilir.

**Fövqəladə hal rejimi tətbiq olunduqda aşağıdakı tədbirlər həyata keçirilir:**

- əhalinin mühafizəsi təşkil edilir;
- fövqəladə hal rayonuna əməliyyat qrupları çıxarılır;
- fövqəladə hadisənin nəticələrinin aradan qaldırılması işi təşkil edilir;
- fövqəladə hadisə zonasının sərhədləri təyin edilir;
- iqtisadi obyektlərin və sənaye sahələrinin dayanıqlı fəaliyyət göstərməsi, zərər çəkmiş əhalinin həyat fəaliyyətinin təmin edilməsi üzrə təcili tədbirlər görülür;
- fövqəladə hal rayonlarında, qəzalı vəziyyətdə olan obyektlərdə və onlara bitişik ərazilərdə ətraf mühitin vəziyyəti üzərində fasiləsiz nəzarət həyata keçirilir.

***Təbii fəlakət*** bir insanın iradəsi və fəaliyyətindən asılı olmayaraq baş verən, insanların həyat və sağlamlığına, dövlətə, ictimai və xüsusi mülkiyyətə təhlükə yaradan nəzarətsiz təbiət hadisələridir.

Təbii fəlakətlər fəsadların şiddətinə görə iri istehsalat qəzaları və nəqliyyat qəzaları ilə sıx birləşir. Bir qayda olaraq, onlar insanların diqqətsizliyindən və çox vaxt köhnəlmiş avadanlıqların istismarı zamanı yaranır, konkret vəzifəli şəxslərin xidməti səhlənkarlığı və cinayətkar təkəbbürü ilə ifadə olunur. Belə fəlakətlərə Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanı (bu qəza Atom Eenerjisi üzrə Beynəlxalq Agentliyin şkalasına görə ən yüksək 7-ci səviyyəyə aiddir), gəmilərin batması, sərnişin qatarlarında baş verən qəzalar, dəmir yolunda partlayışlar, böyük yanğınlar və s. aid etmək olar.

**Təbii fəlakətləri baş vermə vaxtına və mahiyyətinə görə şərti olaraq iki qrupa bölmək olar:**

1. Təbii olaraq dövrü təkrarlananlar: daşqınlar, sellər, qar yığınları.
2. Qəfildən yarananlar: zəlzələlər, qasırğalar, tufanlar, yanğınlar.



Bəzi müəlliflər təbii mənşəli fövqəladə halları aşağıdakı qaydada təsnif edirlər:

- hidroloji (qar uçqunları, sel axınları, daşqınlar);
- meteoroloji (güclü küləklər, çovğun, qar fırtınası, leysan yağışlar);
- hidrometeoroloji (sunami, tayfunlar);
- seysmoloji (zəlzələ, vulkan püskürməsi).

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən fövqəladə halların meyarları hazırlanıb. Bu meyarlara görə fövqəladə hallar təbii, texnogen və ekoloji xarakterli olmaqla 3 qrupa bölünür.

Təbii fəlakətlər, epidemiyalar, epizootiyalar və texnogen mənşəli iri qəzalar insan tələfatına, insanların səhhətinə və ətraf mühitə ziyan vurur, əhəmiyyətli maddi itkilərə və insanların həyat fəaliyyəti şəraitinin pozulmasına səbəb olur. Belə hallar ictimai qaydanın və ictimai təhlükəsizliyin vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərdiyindən onların yarandığı şəhər və rayonlarda əməliyyat şəraiti kəskin dəyişir.

Təbii fəlakətlər zamanı və digər fövqəladə hallarda ictimai qaydanın və ictimai təhlükəsizliyin vəziyyətinə aşağıdakı amillər əhəmiyyətli dərəcədə təsir göstərir:

a) baş verən təbii fəlakətin və ya digər fövqəladə halın xarakteri, onların intensivliyi, dağıdıcı gücü, davametmə müddəti, yayılma ərazisi;

b) bu hadisələrin qavranılması və qiymətləndirilməsinin xüsusiyyətlərinə görə insanların psixoloji vəziyyəti, əhalinin hazırlıqlı olması və belə hallara uyğunlaşması;

c) idarə, müəssisə və təşkilatların, o cümlədən daxili işlər orqanlarının fövqəladə hallara hazırlıqlı olması.

Təbii fəlakətlər, epidemiyalar, epizootiyalar və digər fövqəladə hallar zamanı daxili işlər orqanları tərəfindən ictimai asayişin qorunması istiqamətində həyata keçirilən tədbirlərin bəsit formaları bir çox hallarda effektli sayılmır. Ona görə də gözlənilən təhlükənin qarşısının alınması, fövqəladə hadisənin nəticələrinin aradan qaldırılması üçün yerli icra hakimiyyəti və idarəetmə orqanları tərəfindən yerlərdə aşağıda qeyd olunan tədbirlər tətbiq edilir:

***- xüsusi hüquqi rejim;***

***- yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, təsərrüfat subyektlərinin və ictimai təşkilatların fəaliyyətinin dəqiq koordinasiya edilməsi.***

***Xüsusi hüquqi rejim*** Azərbaycan Respublikası Prezidentinin Fərmanı və ya Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Fövqəladə vəziyyət" haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tətbiq edilir. Xüsusi hüquqi rejim konkret vəziyyətdən asılı olaraq aşağıdakı xüsusi tədbirlərin yerinə yetirilməsini nəzərdə tutur:

- əhalinin təhlükəsiz yaşayış şəraitini təmin edən obyektlərin, nəqliyyatın, telekommunikasiya şəbəkə, qurğu və obyektlərin, poçt obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin, enerji təchizatı müəssisələrinin, baş enerji nəqletmə sistemlərinin, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsinin gücləndirilməsi;
- dustaqların saxlandığı yerlərin mühafizəsinin gücləndirilməsi, patrul xidmətinin sutkaboyu təşkil edilməsi, sipərləmənin və əhatəetmənin qoyulması, əmlakın və digər qiymətlilərin qorunması;
- vətəndaşların gediş-gəlişini nizama salan xüsusi rejimin tətbiq edilməsi;
- ayrı-ayrı vətəndaşlara təyin olunmuş müddət ərzində müəyyən bir ərazini, öz mənzilini (evini) tərk etməsinin qadağan edilməsi;
- fövqəladə vəziyyət elan edilmiş ərazidən bu ərazinin sakinləri olmayan, orada yaşayan əhalinin daimi yaşayış yerinə qonaq gəlmiş və ictimai asayişi pozan vətəndaşların həmin ərazidən deportasiya edilməsi;
- yığıncaqların, mitinqlərin, küçə yürüşləri və nümayişlərin, habelə digər kütləvi tədbirlərin keçirilməsinin qadağan edilməsi və ya məhdudlaşdırılması;
- əmək qabiliyyətli vətəndaşların idarə, müəssisə və təşkilatlarda işləməyə, həmçinin fövqəladə hadisənin nəticələrinin aradan qaldırılmasına cəlb edilməsi;
- rabitə vasitələrindən istifadə ilə bağlı xüsusi qaydaların tətbiq edilməsi, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması və onlara baxışın keçirilməsi;
- komendant saatının və "Fövqəladə vəziyyət" haqqında Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər tədbirlərin tətbiq olunması.

Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə işləri əlaqələndirmək üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarı ilə müvəqqəti xüsusi orqanlar (qərargahlar) yaradıla bilər.

İctimai asayişin və ictimai təhlükəsizliyin qorunması birbaşa daxili işlər orqanlarına həvalə olunur. Belə şəraitdə fəaliyyətin təşkili daxili işlər orqanlarının şəxsi heyətinin yüksək dərəcədə səfərbər olunmasını, etibarlı idarəetmə sisteminin yaradılmasını, yerli icra hakimiyyəti və idarəetmə orqanları ilə dəqiq qarşılıqlı əlaqənin saxlanılmasını tələb edir.

***Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində daxili işlər orqanlarına aşağıdakı vəzifələr həvalə olunur:***

- idarəetmə orqanlarını və qüvvələri müvafiq hazırlıq dərəcələrinə gətirmək;
- ictimai asayişi, ictimai təhlükəsizliyi və əhalinin əmin-amanlığını təmin etmək, fövqəladə hallar zamanı yaranan şəraitdən istifadə edənlərin cinayət törətməsinin qarşısını almaq, günahkarları məsuliyyətə cəlb etmək;

- insanların xilas edilməsində, zərərçəkənlərə, habelə çarəsiz vəziyyətdə və ya sıxıntı içində olan insanlara təcili yardım göstərilməsində iştirak etmək;

- zərərçəkənlərin və həlak olanların tibb müəssisələrinə daşınmasına yardım göstərmək;

- əhalinin sanitar itkilərinin hesablanması və həlak olanların dəfn olunmasının təşkilində iştirak etmək;

- köçürülən əhalinin yerləşmə yerlərində qeydiyyatının təşkilində, ünvan-sorğu işinin aparılmasında iştirak etmək;



- gündəlik tələbat mallarının, o cümlədən ərzaq və sənaye məhsullarının əldə olunmasında (satışında) xüsusi qaydaları tətbiq etmək;

- köçürülmə prosesinə, qəza-xilasetmə və digər təxirə-salınmaz işlərin aparılmasına əhalini cəlb etmək, nəqliyyat vasitələrindən və digər texnikalardan istifadə ilə bağlı yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarına köməklik göstərmək;

- maddi sərvətlərin zədələnməsinin və məhvinin qarşısını almaq, dövlətin sahibsiz qalmış əmlakının, ictimai əmlakın, eləcə də vətəndaşların şəxsi əmlakının qorunmasını təşkil etmək;

- fövqəladə hal rayonunda maddi və mədəni sərvətlərin məhv edilməsi, oğurlanması və ya korlanması təhlükəsi yarandıqda onların təhlükəsiz rayonlara köçürülməsinə kömək etmək;

- karantin tədbirlərinin həyata keçirilməsində səhiyyə və baytarlıq nəzarət orqanlarına kömək etmək;

- əməliyyat qruplarının, qüvvə və vasitələrin fövqəladə hal zonasına yeridilməsi, bu zonalardan zərərçəkənlərin çıxarılması marşrutlarında, eləcə də xilasetmə və digər təxirəsalınmaz işlərin aparıldığı yerlərdə yol hərəkətinin təhlükəsizliyini və ictimai asayişi təmin etmək;

- yolların və küçələrin hərəkət üçün təhlükəli olan yerlərində, dağılmış sahələrində yol hərəkətini məhdudlaşdırmaq və ya qadağan etmək, yol hərəkətini tənzimləyən zəruri texniki vasitələrin quraşdırılmasını təşkil etmək;

- adamların və yüklərin daşınması üçün təyin olunmuş avtomobil nəqliyyatı vasitələrinin texniki vəziyyətinə nəzarəti həyata keçirmək;

- avtomobil yollarında yol-patrul xidmətinin nəzarət-buraxılış məntəqələrini və postların açılmasını və onların işini təşkil etmək;

- küçələrin və avtomobil yollarının vəziyyətinə, təchizatına nəzarəti həyata keçirmək;

- yalan və böhtan xarakterli məlumatların, şayiələrin əhali arasında yayılmasının qarşısını almaq, mümkün kütləvi iğtişaşların xəbərdar edilməsi və qarşısının alınması üzrə tədbirləri həyata keçirmək;

- yanğın və alışmaların söndürülməsində iştirak etmək;

- partlamamış bombaların, mərmilərin, minaların və s. aşkarlanması zamanı fövqəladə hallar orqanlarına kömək etmək.

Fövqəladə hallar zamanı ictimai asayişin və ictimai təhlükəsizliyin qorunması tədbirlərinin bacarıqla təmin edilməsi çaxnaşmanın və ağır cinayətlərin qarşısını ala bilər, əhaliyə vaxtında yardım göstərmək və nəticə etibarilə təcili tədbirlərin bütün kompleksinin həyata keçirilməsini təmin etmək olar.

## 2. Təbii fəlakətlər və digər fövqəladə hallar zamanı ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsinin xüsusiyyətləri.

Fövqəladə hallar zamanı daxili işlər orqanlarının əsas vəzifələri və borcları “Polis haqqında” və “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının qanunlarında, digər normativ-hüquqi aktlarda təsbit edilmişdir. Qanunvericiliyə əsasən daxili işlər orqanları Azərbaycan Respublikasının bütün ərazisində və ya onun ayrı-ayrı yerlərində tətbiq edilən fövqəladə və ya hərbi vəziyyət rejiminin təmin edilməsində, fövqəladə halların qarşısının alınmasını və onların nəticələrinin aradan qaldırılması üzrə vahid dövlət tədbirlərinin, həmçinin

karantin tədbirlərinin həyata keçirilməsində fəal iştirak edir. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi insanların xilas edilməsi üzrə təxirəsalınmaz tədbirlərin keçirilməsi, ağır və irimiqyaslı qəzaların, yanğınların, təbii fəlakətlərin, kütləvi iğtişaşların və digər fövqəladə halların nəticələrinin aradan qaldırılması zamanı ictimai qaydanın təmin olunmasına, həmçinin digər xüsusi əməliyyatların və tədbirlərin keçirilməsinə daxili işlər orqanlarını və Daxili Qoşunların "Naxçıvan" Əməliyyat Briqadasını cəlb edir, onların qüvvə və vasitələrinin operativ idarə olunmasını həyata keçirir.

Təbii fəlakətlər, epidemiyalar, epizootiyalar və digər fövqəladə hallar zamanı ictimai asayişin və ictimai təhlükəsizliyin qorunmasının təşkili **iki dövrü** əhatə edir:

**1. Hazırlıq dövrü;**

**2. İcra dövrü.**

*Hazırlıq dövründə aşağıdakı tədbirlər həyata keçirilir:*

- planların və digər sənədlərin tərtib olunması;
- şəxsi heyətin fövqəladə vəziyyətlərdə fəaliyyət göstərməyə professional hazırlanması;
- texniki və rabitə vasitələrinin, digər texnikanın hazırlığının təmin edilməsi;
- inzibati orqanlar və təsərrüfat subyektləri ilə, həmçinin qonşu rayonların daxili işlər orqanları arasında qarşılıqlı əlaqənin təşkili.

Daxili işlər orqanlarının bütün qüvvə və vasitələrinin yaranmış şəraitdə operativ idarə olunmasını, vaxtında məlumat mübadiləsini və rabitənin düzgün qurulmasını nəzərdə tutur. Bütün bunlar xüsusi bir planda öz əksini tapır. Planın hazırlanması daxili işlər orqanı rəisinin qərarı əsasında həyata keçirilir. Planın hazırlanması zamanı müvafiq dövlət orqanlarının, məsələn, hidrometeorologiya xidmətinin ən çox ehtimal olunan əlverişsiz hadisələr haqqında və ya səhiyyə müəssisələrinin yoluxucu xəstəliklərin yayılması ilə əlaqədar proqnozları böyük əhəmiyyətə malikdir. Plan müvafiq icra hakimiyyəti və idarəetmə orqanları ilə razılaşdırılır və daxili işlər orqanının rəhbəri tərəfindən təsdiqlənir.

Fövqəladə hal zonalarının (çirklənmə, dağıntı, subasma və s.) maksimal sərhədləri təyin edildikdən və həmin yerin (yaşayış massivi, sənaye məhəlləsi və s.) xəritəsi üzərində məlumatlar yerləşdirildikdən sonra əsas qüvvələrin cəmləşmə istiqamətləri müəyyən edilir. Daha sonra fövqəladə hal zonasını əhatə edən qrupların tərkibi müəyyənləşdirilir. Əsas qüvvələrin cəmləşmə rayonlarını əhatə etmək üçün polis postları, dazorları, bəzi hallarda isə polis (hərbi, qarışıq) naryadları təyin olunur. Qalan istiqamətlərdə isə polis postları, dazorlar və patrullar qoyulur.

Əhatəetmə qruplarının sayı müəyyən edilərkən aşağıdakı normalardan istifadə olunur:

polis naryadı: polis nəfərləri arasındakı məsafə 2 metrdən artıq olmamaqla qoyulur;

dazor: 2-3 nəfərdən ibarət olub, 500 m uzunluğunda olan sahəni əhatə etmək üçün təyin olunur;

polis postu: 2-3 nəfərdən ibarət olub, 300 m uzunluğunda olan sahəni əhatə etmək üçün təyin olunur.

Qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmək üçün daxili işlər orqanının şəxsi heyətində ehtiyat yaradılır (döyüş hesabının 15%-ə qədəri).

Fövqəladə hallar zamanı köçürməni təmin edən qrupun tərkibi köçürməni həyata keçirən yerli icra hakimiyyəti orqanının rəhbəri tərəfindən müəyyən edilmiş qaydaya və şəxsi heyətin ayrılması normasına uyğun təyin edilir. Hər bir toplanış-köçürmə məntəqəsində daxili işlər orqanının şəxsi heyətindən köçürmə komissiyasında işləmək üçün 1-2 nəfər, nəqliyyat vasitələrinin yoxlama komissiyasında işləmək üçün 1-2 nəfər və ictimai asayişi qorumaq üçün 1-2 nəfər təyin olunur. Nəqliyyata minmə meydançasını əhatə etmək üçün meydançanın perimetri boyunca hər 3-10 m məsafədə 1 nəfər polis naryadı qoymaqla mühafizə təşkil olunur. Dəmiryol nəqliyyatına minmə məntəqələrində ictimai asayişi qorumaq üçün 1 eşelon üçün 3-5 nəfər, dəmiryol eşelonunu müşayiət etmək üçün 2 nəfər təyin olunur. Hər bir avtomobil dəstəsini müşayiət etmək üçün isə 1-2 nəfər polis əməkdaşı və yol-patrul xidmətinin 1 nəfər polis əməkdaşı cəlb olunur.

Əhalinin köçürülməsi üçün piyada kolonları yaradılır. Köçürülən hər 1000 nəfər əhalinin piyada kolonlarını müşaiyət etmək üçün 1-2 nəfər polis əməkdaşından ibarət naryad təyin olunur.

Təxliyə marşrutlarında hər 7-10 km məsafədə 1-3 nəfər polis əməkdaşından ibarət ***hərəkəti tənzimləmə postları*** qoyulur.

Köçürülən əhalinin yerləşmə məntəqələrində ictimai asayişi qorumaq üçün polis naryadları təyin olunur. Hər bir müvəqqəti yerləşmə yerində 2-3 polis əməkdaşından ibarət postlar qoyulur. Köçürülən hər 5-10 min nəfər əhali üçün 2 polis naryadı nəzərdə tutulur. Köçürülənlərin qeydiyyatını aparmaq üçün 3-5 nəfər polis əməkdaşından ibarət ***qeydiyyat qrupu*** yaradılır.

Fövqəladə hadisə rayonuna göndərilən ***əməliyyat qrupları*** 9-12 nəfərdən ibarət olur. Cinayətkarlığa, iqtisadi və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə xətti ilə yaradılan əməliyyat qruplarının tərkibi adətən, 2-4 nəfər polis əməkdaşından ibarət olur. Köçürülmə aparılan rayonda əlavə olaraq 1-2 əməliyyat qrupu, köçürülənlərin yerləşmə məntəqəsində isə 3-6 nəfərdən ibarət 1 əməliyyat qrupu təyin olunur.

***Ölənlərin şəxsiyyətini müəyyən edən qruplar*** təyin edilərkən fövqəladə hallar zamanı tapşırıqların anoloji qaydada yerinə yetirilməsi təcrübəsi əsas götürülür. Zəlzələlər zamanı əhali arasında itkilərin sayı çox olduğundan qrupun say tərkibi adətən 30 nəfərədək, subasma və texnogen qəzalar zamanı isə 10 nəfərədək müəyyən edilir.

***Zərər çəkmiş insanlara və onların qohumlarına yardım qrupu:*** 3-6 nəfər polis əməkdaşından təyin olunur.

***Təhlil və informasiya qrupu:*** əməliyyat şəraiti barədə məlumatların toplanılması, ümumiləşdirilməsi və işlənilməsini həyata keçirir. O, idarəetmə qərarlarının layihələrinin hazırlanmasına, qərargahın verdiyi əmr və tapşırıqların yerinə yetirilməsinə nəzarət edir. Təhlil və informasiya qrupu adətən 2-4 nəfər polis əməkdaşından ibarət olur.

***Kəşfiyyat qrupu:*** fəlakət nəticəsində dəymiş zərərin miqdarını təyin edir, ölən və zərərçəkənlərin təxmini sayını, zəruri yardımın miqyasını və xarakterini müəyyən edir. Qrupun bütün məlumatları tam və dolğun olmalı, qərargaha vaxtında təqdim olunmalıdır. Kəşfiyyat qrupu 3-5 nəfər polis əməkdaşından təyin olunur.

***Təbliğat qrupu:*** əhalinin ümumi mənəvi-psixoloji vəziyyətini qiymətləndirir, yalan məlumatları yayan şəxsləri müəyyənləşdirir, çaxnaşma yaratmaq istəyənlərin qarşısını alır, məlumatlandırma və izahat işləri aparır, fəlakət rayonunda əməliyyat şəraiti barədə qərargaha məruzə edir. Təbliğat qrupu 4-8 nəfər polis əməkdaşından təyin olunur.

***Rabitə qrupu:*** xidmətlər, əməliyyat qrupları, polis naryadları və gücləndirmə üçün ayrılmış qüvvələr, eləcə də yerli icra hakimiyyəti və idarəetmə orqanları arasında naqilli və radio rabitə əlaqəsinin yaradılmasını təmin edir. Təcili sərəncamların çatdırılması və onların yerinə yetirilməsinə nəzarət məqsədilə zəruri hallarda çaparlardan istifadə olunur. Rabitə qrupu 2-4 nəfər polis əməkdaşından təyin olunur.

Yuxarıda sadalananlardan əlavə, fəlakət rayonunda axtarış və qəza-xilasetmə işlərini aparan qruplardan, nəzarət buraxılış məntəqəsindən (NBM) və s. qüvvələrdən istifadə oluna bilər.

Xüsusi şəraitdə daxili işlər orqanının fəaliyyətə hazırlıq prosesində müvafiq normativ hüquqi aktların öyrənilməsi və real vəziyyətə yaxınlaşdırılmış bir şəraitdə naryadların fəaliyyətinin məşq etdirilməsi təşkil edilməlidir. Təlimlərdə, məşqlərdə və xidməti hazırlıq sistemində şəxsi heyətin öyrədilməsi üçün əldə olunan təcrübəyə əsaslanaraq xüsusi tapşırıqlar və konkret müdaxilələr hazırlanmalıdır.

***Qoruyucu tədbirlərin birbaşa həyata keçirilmə dövrü:***

- fövqəladə hal şəraitinin yaranması barədə məlumatın alınması ilə başlanır. Daxili işlər orqanlarının bütün şəxsi heyəti fövqəladə halın xarakteri və miqyasını nəzərə almaqla standart plana uyğun olaraq fəaliyyətə başlayır. Bu dövrdə şəxsi heyətin fəaliyyətinin xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- gözətçi rejiminə uyğun (tələb əmsalı nəzərə alınmadan) şəxsi heyət yüz faiz istifadə olunur;

- bütün bölmələr yeddi günlük iş rejiminə keçirilir, aktiv xidmət müddəti gün ərzində 12 saat və daha çox təşkil edir;

- mühafizənin bütün obyektləri qarovul sistemi mühafizəsinə (24 saatlıq iş rejiminə) keçirilir.

***İrimiqyaslı təbii fəlakətlər, epidemiyalar və epizootiyalar zamanı aşağıda qeyd olunan əlavə qüvvələr cəlb oluna bilər:***



- Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının bölmələri;
- Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə alayı və Xüsusi Riskli Xilasetmə Xidmətinin bölmələri;
- Əlahiddə Ümumqoşun Ordunun hissə və bölmələri;
- könüllü drujinalar, digər təhlükəsizlik bölmələri və s.

Əlavə qüvvələrin istifadəsinin məqsədyönlü forması onların daxili işlər orqanları əməkdaşlarının rəhbərliyi altında xidmət aparan polis naryadlarının tərkibinə daxil edilməsidir.

Fövqəladə hal zonasında yerli icra hakimiyyəti və idarəetmə orqanlarının qərarı əsasında müxtəlif məhdudiy-yətlər tətbiq oluna bilər. Məsələn, əhalinin həyat və sağlamlığı üçün təhlükəli yerlərin təcrid edilməsi, nəqliyyat vasitələrinin və piyadaların hərəkətinin məhdudlaşdırılması, vətəndaşların təxliyə (evakuasiya) edilməsi, karantin tədbirləri və bunlara oxşar digər tədbirlər.

Daxili işlər orqanlarının mövcud qüvvə və vasitələrindən bacarıqla istifadə edilməsi fövqəladə şəraitdə ictimai asayişin qorunması və təhlükəsizliyin təmin edilməsi üzrə mürəkkəb tapşırıqların uğurla yerinə yetirilməsinə imkan verir.

## 3. Fövqəladə hallar zamanı daxili işlər orqanlarının idarə olunması

Fövqəladə hallarda daxili işlər orqanlarının idarə olunması fövqəladə halların vahid idarəetmə sisteminə uyğun olaraq həyata keçirilir. Daxili işlər orqanları idarəetmə sisteminin subyektlərindən biri olmaqla quruluşuna görə onun funksional alt sistemlərindən biri hesab olunur.

Fövqəladə hallar zamanı daxili işlər orqanlarının fəaliyyətinin idarə olunmasında üç əsas mərhələ ayırd edilir:

1) operativ reaksiyavermə;
2) fövqəladə idarəetmə;
3) fövqəladə halların nəticələrinin aradan qaldırılması.

İdarəetmənin hər üç mərhələsində daxili işlər orqanları müxtəlif vəzifələri yerinə yetirir.

***Birinci mərhələ****də* ictimai qaydanın saxlanılması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı vəzifələrin yerinə yetirilməsinə cəlb olunan daxili işlər orqanlarının qüvvə və vasitələrinin hazırlığı yoxlanılır.

***İkinci mərhələ*** idarəetmə orqanlarının işini və bütövlükdə idarəetmə sistemini əhatə edir. İdarəetmə sisteminin tərkibində öz bölmələrinin əməliyyat-xidməti fəaliyyətinə rəhbərliyin həyata keçirilməsi üçün əlavə idarəetmə manqaları, əməliyyat-istintaq qrupları yaradılır, həmçinin tapşırıqların yerinə yetirildiyi rayonda dəstək üçün ayrılmış digər qüvvə və vasitələr nəzərə alınır.



***Üçüncü mərhələ*** idarəetmə orqanları tərəfindən fövqəladə hal rayonunda vəziyyətin normallaşdırılması, həyat fəaliyyətinin bərpası və ərazi daxili işlər orqanlarına yardım göstərilməsi ilə bağlı həyata keçirilən tədbirləri əhatə edir.

Millətlərarası qarşıdurmalarda, Spitak və Nefteqorsk zəlzələlərində, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş partlayış və s. zamanı daxili işlər orqanlarının qazandığı təcrübə göstərir ki, idarəetmə fəaliyyətinin ilk mərhələsi sonrakı bütün mərhələlər üçün əsasən həlledicidir. Məhz, bu mərhələdə daxili işlər orqanlarının qüvvə və vasitələrinin hazırlanması və istifadəsi barədə qərar qəbul edilir, bu məqsədlə ilkin planlaşdırılma işi aparılır, şəxsi heyətin, idarəetmə orqanlarının və bütün növ təminatların məqsədyönlü hazırlığı təşkil olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bölmələrinin və digər idarələrin hazırlığı və qabiliyyəti ikinci və üçüncü mərhələlərdə onların fəaliyyətinin səmərəliliyindən asılıdır.

Fövqəladə hallarda daxili işlər orqanlarının idarə edilməsi üçün bir sistem formalaşdırılarkən, adi şəraitdə onun idarə edilməsi üçün səciyyəvi olmayan xüsusiyyətləri və fərqli xüsusiyyətləri nəzərə alınmalıdır. Bu zaman daxili işlər orqanlarına rəhbərlik həm fövqəladə hadisə baş verməzdən əvvəl, həm də dərhal onun baş verməsi ilə həyata keçirilir. Bütün bunlar adi təşkilati strukturlarla və taktiki sxemlərlə müqayisədə fərqli strukturların yaradılmasını tələb edir. Belə vəziyyətdə əsas diqqət və səylər ictimai asayişin qorunmasına və cinayətkarlığa qarşı mübarizəyə yönəldilməlidir. Çünki fövqəladə hallarda onların sayı xeyli artır.

Fövqəladə hallar zamanı daxili işlər orqanlarının və daxili qoşunların ən vacib tapşırığı zərər çəkmiş insanlara təcili yardım göstərməkdir. Daxili işlər orqanlarının fövqəladə halların xəbərdar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə mövcud idarəetmə sistemində bir sıra əhəmiyyətli çatışmazlıqları var və bunlar qoyulan tələblərə tam cavab vermir. Təşkilati qaydada problemin olması dəqiq təşkil edilmiş ümumdövlət sistemin olmaması ilə bağlıdır. Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi kriminal fövqəladə hallarla məşğul olmur, digər bir qurum isə hələlik yaradılmayıb. Əsas normativ-hüquqi sənəd “Polis haqqında” Azərbaycan Respublikasının Qanunudur. Qanunda polisin vəzifələri və hüquqları tam həcmdə müəyyən edilmişdir. Qanunun 14-cü maddəsinin 6-cı bəndində göstərildiyi kimi polis əməkdaşının vəzifələrindən biri Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində tətbiq edilən fövqəladə və ya hərbi vəziyyət rejimini təmin etmək, epidemiya və ya epizootiya zamanı karantin tədbirlərinin həyata keçirilməsində iştirak etməkdir. “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında” Əsasnamədə qeyd olunduğu kimi qəzalar, bədbəxt hadisələr, yanğın və təbii fəlakətlər zamanı daxili işlər orqanları və daxili qoşunlar insanların xilas edilməsi üzrə təxirəsalınmaz tədbirlərin keçirilməsi, ağır və irimiqyaslı qəzaların, yanğınların, təbii fəlakətlərin, kütləvi iğtişaşların və digər fövqəladə halların nəticələrinin aradan qaldırılması zamanı ictimai qaydanın təmin olunması işinə, həmçinin digər xüsusi əməliyyatların və tədbirlərin keçirilməsinə cəlb olunur, onların qüvvə və vasitələrinin operativ idarə olunması həyata keçirilir.

Müxtəlif fövqəladə hallarda daxili işlər orqanlarının idarəetmə sistemi vəziyyətin xarakterinə, onun inkişafının təklif olunan modelinə uyğun olmalı, müxtəlif dəyişikliklərə adekvat və operativ reaksiya verməyə qadir olmalıdır. Fövqəladə hallarda Azərbaycan Respublikası daxili işlər orqanlarının və Daxili Qoşunların qüvvələrinin fəaliyyətini yeni yaradılan bir qurum - operativ qərargah təşkilati baxımdan təmin və idarə edir.

Fövqəladə vəziyyət rejimi elan olunduqda Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Dövlət Təhlükəsizlik Xidmətinə və Müdafiə Nazirliyinə birgə operativ qərargahın yaradılması tapşırıla bilər.

***Operativ qərargah*** daxili işlər orqanlarının bütün qüvvə və vasitələrinin idarə olunmasını, dövlət və ictimai təşkilatlarla qarşılıqlı əlaqənin qurulmasını təmin edir. Operativ qərargahın tərkibi fövqəladə hadisənin növü və ağırlıq dərəcəsindən asılı olaraq daxili işlər orqanının rəisi tərəfindən təyin olunur. Operativ qərargahın rəhbəri Azərbaycan Respublikasının Daxili İşlər naziri və ya Bakı şəhər Baş Polis İdarəsinin rəisi təyin oluna bilər. O, operativ qərargahın işini təşkil edir, qüvvə vasitələrin fəaliyyətə hazırlığını və onların idarə olunmasını təmin edir. Fövqəladə vəziyyət rejimi tətbiq edildikdə birgə operativ qərargahın rəhbəri bu rejimi tətbiq edən qurumun rəhbəri təyin edilir. Operativ qərargahın üzvləri Daxili İşlər Nazirliyinin Aparatı və struktur qurumlarının vəzifəli şəxsləri, eləcə də digər təşkilatların rəhbərləri ola bilər. Bu qurumların şəxsi heyəti fövqəladə hallarda tapşırıqların yerinə yetirilməsinə birbaşa cəlb olunurlar. Operativ qərargahın tərkibinə həmçinin daxili işlər orqanının əsas bölmələrinin rəisləri, təhlil və informasiya, kəşfiyyat, təbliğat və rabitə qrupları daxil edilə bilər.

Dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının qərarı ilə operativ qərargahın tərkibinə onların səlahiyyətli nümayəndələri, həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturuna daxil olmayan orqanların nümayəndələri də daxil edilə bilər. Operativ qərargah ona bilavasitə tabe olan qüvvələrə, habelə əməliyyat baxımından tabeçiliyə verilmiş bütün qüvvələrə rəhbərlik edir. O, yuxarı daxili işlər orqanının əmr və göstərişlərini,

yerli icra hakimiyyəti və idarəetmə orqanlarının qərarlarını (aktlarını) yerinə yetirir, qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmək üçün cəlb olunan qüvvə və vasitələrin zəruri hesabatlarını aparır, onlar üzərində manevr edir, xilasetmə və digər təxirəsalınmaz işlərin aparılmasını təşkil edir.

Təbii və texnogen xarakterli fövqəladə hallarda operativ qərargahın əsas vəzifələrindən biri daxili işlər orqanlarının qüvvə vasitələrinin fəaliyyətə hazırlığının təmin edilməsi və onların idarə edilməsi hesab olunur. Bu vəzifələrin həll edilməsi üçün operativ qərargah aşağıdakı funksiyaları yerinə yetirir:

***a) fövqəladə hallarda daxili işlər orqanlarının qüvvə və vasitələrinin fəaliyyətə hazırlığının təmin edilməsi üzrə:***

- fəaliyyət planlarının işlənilməsi və təkmilləşdirilməsi;
- tapşırıqların yerinə yetirilməsi üçün şəxsi heyətin peşə hazırlığının, eləcə də psixoloji hazırlığının təşkil edilməsi;
- şəxsi heyətin təlim və məşqlərinin hazırlanması və keçirilməsi;
- qüvvə və vasitələrin fəaliyyətə hazırlıq vəziyyətinə nəzarətin həyata keçirilməsi;
- hazırlığın yüksəldilməsi üzrə tədbirlərin işlənilməsi və yerinə yetirilməsinin təşkil edilməsi;
- qüvvə və vasitələrin idarə olunması sisteminin təkmilləşdirilməsi, şəxsi heyətin xəbərdar edilməsi və həyəcan siqnalında toplanması sisteminin inkişaf etdirilməsi;
- maddi-texniki təminatın təşkil edilməsi;
- qüvvə və vasitələrin hazırlığı üzrə qabaqcıl təcrübənin öyrənilməsi və tətbiq edilməsi;
- idarəetmənin təşkili və onun hərtərəfli təminatı.

***b) fövqəladə hallarda qüvvə və vasitələrin idarə olunması üzrə:***

- müvafiq xüsusi planın tətbiq olunması;
- qüvvə və vasitələrin toplanması və hazır vəziyyətə gətirilməsi;
- idarəetmə məntəqələrinin açılması, vəziyyət barədə məlumatların toplanması və təhlil edilməsi;
- rabitənin təşkil edilməsi;
- qüvvə və vasitələrin açılması və fəaliyyət göstərməsi, o cümlədən əməliyyatın aparılması barədə qərarın qəbul edilməsi;
- müvafiq idarəetmə orqanlarının, habelə hüquq-mühafizə və yuxarı daxili işlər orqanlarının rəhbərlərinin vəziyyət barədə məlumatlandırılması, qərarın elan olunması;
- plana uyğun olaraq birgə fəaliyyət göstərməyə cəlb olunan qüvvə və vasitələrin rəhbərlərinə tapşırıqların qoyulması, qarşılıqlı əlaqənin təşkil edilməsi;
- fəaliyyət rayonuna qüvvə və vasitələrin nəqliyyat vasitələri ilə daşınması, şəxsi heyətin arxa və texniki təminatının təşkil edilməsi;
- verilmiş sərəncamların icrasına nəzarət edilməsi, qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsi və qarşılıqlı əlaqənin saxlanılmasında əməli köməkliyin göstərilməsi;
- yaranmış vəziyyətin mənfi nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin təmin edilməsi;
- tapşırıqların yerinə yetirilməsinin təhlilinin aparılması, fəaliyyət planına dəyişikliklərin (əlavələrin) edilməsi;
- qüvvə və vasitələrin hazırlığının təkmilləşdirilməsi üzrə tədbirlərin işlənilməsi.

## 4. Fövqəladə hallar zamanı ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi

Fövqəladə hallarda ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi fövqəladə halın miqyasından və əhəmiyyətindən asılı olaraq, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi tərəfindən prokurorluq və təhlükəsizlik orqanları ilə sıx əməkdaşlıqda təşkil edilir.

Fövqəladə hallarda ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üçün Daxili İşlər Nazirliyinin xidmət və bölmələrinin şəxsi heyəti, Daxili Qoşunların “Naxçıvan” Əməliyyat Briqadası cəlb edilə bilər.

İctimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə cəlb olunan qüvvə və vasitələrin daha effektiv idarə olunması üçün zəruri hallarda <u>*operativ qərargah*</u> yaradılır. Qərargahın say tərkibi fövqəladə hallarda həyata keçirilən kütləvi tədbirlərin xarakteri və miqyası, habelə yaranmış əməliyyat şəraiti ilə müəyyən edilir.

Kütləvi iğtişaşlar və ictimai asayişin qruplaşma halında pozulması zamanı daxili işlər orqanlarının və bölmələrinin, eləcə də daxili qoşunların rəhbərləri və şəxsi heyəti Azərbaycan Respublikasının qüvvədə olan qanunlarını və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq normativ aktlarını rəhbər tuturlar.



Fövqəladə hallar adətən, kütləvi iğtişaşlar, təbii fəlakətlər, yanğınlar, iri istehsalat qəzaları, fəlakətlər, epidemiyalar və epizootiyalar baş verdikdə yaranır. Fövqəladə hallar zamanı əhalinin həyatı və sağlamlığı üçün təhlükə yaranır, qəza-xilasetmə və bərpa işlərinin aparılmasını tələb edir.

***Fövqəladə hallar zamanı daxili işlər orqanları və Daxili Qoşunların "Naxçıvan" Əməliyyat Briqadası Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə qarşılıqlı əlaqədə aşağıdakı xüsusi tədbirləri təşkil edir və həyata keçirirlər:***

- təyin olunmuş ictimai qaydanı və yol hərəkətinin təhlükəsizliyinin bərpası və saxlanılmasını təmin edir, cinayətlərin və digər qanunazidd hərəkətləri vaxtında aradan qaldırır;
- əhalinin sağlamlığını qoruyur, itkilərin uçotunu aparır, insanları xilas edir və zərərçəkənlərə zəruri yardım göstərir;
- sahibsiz qalmış əmlakın qorunmasını təmin edir;
- qəza-xilasetmə və bərpa işlərinin aparılmasına köməklik göstərir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Aparatı və struktur qurumlarında şəxsi heyətin fövqəladə hallara daimi hazırlığının təmin edilməsi məqsədilə əməliyyat planları hazırlanır. Bu planlar müvafiq daxili işlər orqanının rəhbəri tərəfindən təsdiq olunur və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılır.

<u>***Fövqəladə hallar zamanı əməliyyat planlarının işlənilməsində aşağıdakılar nəzərə alınmalıdır:***</u>

- fövqəladə halların yaranması zamanı xidmət aparılan ərazidə mümkün vəziyyətin xüsusiyyətləri;
- xidməti və əməliyyat vəzifələrinin yerinə yetirilməsinə cəlb olunan daxili işlər orqanlarının qüvvə və vasitələrinin, o cümlədən gücləndirmə üçün ayrılmış qüvvələrin daimi hazırlıq vəziyyətinə gətirilməsi qaydası;
- fövqəladə hallar zamanı daxili işlər orqanı rəisinin və növbətçisinin təcili hərəkətlərinin siyahısı və ardıcıllığı;
- fövqəladə hallar zamanı tədbirlərin həyata keçirilməsinə cəlb olunan qüvvə və vasitələrin hesabatı, xidməti naryadların və xüsusi qrupların növləri, onların tapşırıqları və xüsusi vəzifələri, ehtiyatın tərkibi, onların yerləşdirilməsi və istifadəsi qaydası;
- cinayətkarlıqla mübarizə və əmlak oğurluğunun qarşısının alınması zamanı ictimai asayişin qorunması üçün səylərin cəmləşdirilməsi lazım olan ərazidə (sahədə) xidmətin aparılmasının xüsusi şərtləri;
- yerli icra hakimiyyəti və yerli idarəetmə orqanları ilə siyahısı əvvəlcədən razılaşdırılmış vacib obyektlərin mühafizəsi;
- insanların xilas edilməsi və köçürülməsi, habelə zərərçəkmiş əhalinin uçotunu aparan şəxsi heyətin təhlükəsizliyini təmin edən tədbirlər;
- təyin olunmuş buraxılış rejiminin və yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi üçün təhlükəli zonaların dövrəyə alınması, mühafizə postları və maneələrinin, nəzarət buraxılış məntəqələrinin və patrul qruplarının açılması qaydası;
- məhkumların və saxlananların, silahların, xüsusi vasitələrin, qiymətli əmlakın və xidməti sənədlərin təhlükəli zonalardan təxliyə edilməsi;
- qonşu rayonların daxili işlər və fövqəladə hallar orqanları, Dövlət Təhlükəsizliyi Xidməti

və Silahlı Qüvvələrin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən birləşmələri və hissələri ilə qarşılıqlı əlaqənin yaradılması;

- idarəetmənin və rabitənin təşkili qaydası;
- əhali arasında yalan şayiələrin yayılmasının və çaxnaşmanın qarşısının alınması üzrə tədbirlər.

**Plana əlavə olunur:**

- xəritə, onun üzərində xidmət aparılan ərazinin hüdudları, daxili işlər orqanlarının, Daxili Qoşunların "Naxçıvan" Əməliyyat Briqadası və onun bölmələrinin, habelə cəzaçəkmə müəssisə-lərinin daimi yerləşmə yerləri, idarəetmə məntəqələri, hidrodinamiki qurğular, vacib əhəmiyyətli təsərrüfat subyektləri, daşqın və qəza ehtimalı olan rayonlar, əsas və ehtiyat təxliyə (evakuasiya) yolları çəkilir;
- şəxsi heyətin xəbərdarlıq sxemi, qüvvə və vasitələrin, o cümlədən dəstək üçün ayrılmış qüvvələrin hesabatı, habelə onların müxtəlif vəziyyətlərdə yerləşdirilməsi variantları;
- sxemlər, planlar, xəritələr, qrafiklər, təcili fəaliyyətin sənədləri, qəza-xilasetmə və bərpa işlərinin aparılmasına cəlb edilən vətəndaşlar və nəqliyyat vasitələri üçün buraxılış vərəqlərinin nümunələri.

Zərurət yarandıqda, daxili işlər orqanı rəhbərinin qərarı ilə yerli şəraitdən və xüsusiyyətlərdən asılı olaraq digər sənədlər də hazırlana bilər.

## 5. Fövqəladə hallar zamanı daxili işlər orqanlarının fəaliyyətinin təşkil olunması

Respublika ərazisində təbii fəlakətlərin, qəza və faciələrin baş verməsi zamanı Azərbaycan Respublikası Daxili İşlər nazirinin əmri əsasında daxili işlər orqanlarının qüvvə və vasitələri fövqəladə hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına cəlb edilir. Daxili İşlər Nazirliyinin idarə, şöbə, bölmə və qoşun hissələrinə göstərişlər mövcud xəbərdarlıq sistemi və rabitə kanalları vasitəsilə çatdırılır. Fövqəladə hallar zamanı Daxili İşlər Nazirliyinin şəxsi heyəti növbətçi hissə tərəfindən xəbərdar olunur.



***Güclü təsirli zəhərli maddələrlə işləyən müəssisələrdə zəhərli maddələrin dağılması ilə müşayiət olunan qəzaların baş verməsi zamanı daxili işlər orqanları tərəfindən aşağıdakı tədbirlər yerinə yetirilir:***

- növbətçi hissənin şəxsi heyətinə və post-patrul xidmətini aparan polis naryadlarına fərdi mühafizə vasitələri paylanılır;
- növbətçi hissələrdə kimya kəşfiyyatı və dozimetrik nəzarət cihazları işə salınır;
- kimyəvi zəhərlənmə ocaqlarına yaxınlıqda yerləşən polis naryadları, mühafizə şöbəsinin bölmələri göndərilir;
- daxili işlər orqanının yerləşdiyi ərazidə radiasiya və kimya müşahidə nəzarəti təşkil edilir;
- tabel silahlarının, sursatların, sənədlərin, digər əmlakların, habelə, müvəqqəti saxlama kamerasında saxlanılan şəxslərin xilas edilməsi və mühafizəsi üzrə tədbirlər görülür;
- yaranmış vəziyyətlə əlaqədar şəxsi heyət "Həyəcan" siqnalı ilə qaldırılır, iki növbəli iş rejiminə keçirilir və şəxsi heyətin yataqxana rejiminə keçirilməsi üzrə tədbirlər həyata keçirilir;
- Daxili İşlər Nazirliyinin Aparatı və struktur qurumlarında fasiləsiz növbətçilik təşkil edilir və şəxsi heyət gücləndirilmiş iş rejiminə keçirilir;
- şəxsi heyətə məzuniyyətlərin verilməsi dayandırılır, ezamiyyət və məzuniyyətdə olanlar geri çağırılır;
- Daxili İşlər Nazirliyinin şəxsi heyətinə tabel silahlarının, dozimetrik-nəzarət və kimya kəşfiyyatı cihazlarının verilməsi təşkil edilir;
- Daxili İşlər Nazirliyinin daimi dislokasiya yerində və daxili işlər orqanı əməkdaşlarının xidmət apardığı yerlərdə radiasiya və kimya kəşfiyyatı təşkil edilir, müşahidə postları qoyulur;
- muxtar respublika ərazisində yerləşən xüsusi əhəmiyyətli dövlət obyektlərinin mühafizə edilməsi,

komendant xidmətinin təşkili və ictimai asayişin qorunmasına Daxili İşlər Nazirliyinin Aparatı, Naxçıvan şəhər Polis İdarəsi və rayon polis şöbələrindən cəlb olunacaq qüvvə və vasitələr dəqiqləşdirilir;



- qarşılıqlı əlaqədə Əlahiddə Ümumqoşun Ordu, Dövlət Təhlükəsizliyi Xidməti və Fövqəladə Hallar Nazirliyi ilə daima əlaqə saxlanılır;
- zədələnmə ocaqlarının qısa bir vaxtda çəpərlənməsinin təşkili üzrə tədbirlər həyata keçirilir;
- magistral yollarda nəzarət-buraxılış məntəqələri yaradılır, hərəkətin tənzimlənmə postları qoyulur;
- Daxili İşlər Nazirliyinin, Naxçıvan şəhər Polis İdarəsinin və rayon polis şöbələrinin sənədlərinin, əmlaklarının çıxarılmasına (köçürülməsinə), eləcə də əməkdaşların və onların ailə üzvlərinin təhlükəsiz yerlərə köçürülməsinə hazırlıq işləri aparılır;
- fövqəladə hal rejimində şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsi üçün tərbiyəvi iş gücləndirilir;
- polis naryadlarında xidmətin aparılmasına daimi nəzarət edilir.

***<u>Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Komissiyasından köçürmə tədbirlərinin keçirilməsi barədə sərəncam alındıqda Daxili İşlər Nazirliyi tərəfindən aşağıdakı tədbirlər həyata keçirilir:</u>***

- köçürülən əhalinin nəqliyyata minmə və düşmə məntəqələrində, hərəkət marşrutlarında ictimai asayişin mühafizəsi gücləndirilir;
- təbii fəlakət rayonlarından əhalinin müvəqqəti olaraq köçürülməsi üzrə Fövqəladə Hallar Komissiyasının qərarının icrası təmin edilir;
- xilasetmə və təxirəsalınmaz işlərin aparılması üçün digər orqan və qüvvələrlə qarşılıqlı əlaqə yaradılır;
- həlak olmuş, itkin düşmüş əhalinin qeydiyyatı aparılır, meyitlərin tanınması üçün ünvan-arayış işləri təşkil edilir;
- fövqəladə hadisənin nəticələrinin aradan qaldırılması rayonunda dövlət, ictimai və şəxsi əmlakların qorunmasının təmin edilməsi üzrə təşkilati və texniki tədbirlər keçirir;



- fövqəladə hadisə rayonunda (təbii fəlakət, texnogen qəza, kimyəvi zəhərlənmə, yanğın və s.) işin dayanıqlılığı təmin edilir və digər zəruri tədbirlər həyata keçirilir;
- təxribat-kəşfiyyat və cinayətkar qruplara qarşı mühafizə tədbirləri təşkil edilir;
- mühüm əhəmiyyətli obyektlərin mühafizəsinə Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqada-sının şəxsi heyəti cəlb olunur.

***<u>Fövqəladə hadisənin real təhlükəsinin yaranması və ya baş verməsi barədə məlumat alındıqda daxili işlər orqanının rəhbəri borcludur</u>:***

- müvafiq planlara və hesabatlara uyğun olaraq şəxsi heyətin xəbərdar edilməsini və toplanmasını təşkil edir;
- fövqəladə hadisənin vaxtını, yerini, xarakterini, dəymiş zərərin miqdarını, əhaliyə, daxili işlər orqanına təhlükənin dərəcəsini, ölən və yaralananların sayını, əməliyyat şəraiti barədə digər məlumatları dəqiqləşdirir;
- əməliyyat planının qüvvəyə minməsi üçün müvafiq qərar qəbul edir, növbətçiyə, xidmət və bölmə rəislərinə müvafiq sərəncamlar verir, əməliyyat qruplarını fövqəladə hal rayonuna göndərir, zəruri hallarda vəziyyətə aydınlıq gətirmək və ərazini öyrənmək məqsədilə şəxsən özü hadisə yerinə gedir;
- yuxarı daxili işlər orqanına, müvafiq icra hakimiyyəti və idarəetmə orqanlarına, Dövlət Təhlükəsizliyi Xidmətinə, prokurorluq və fövqəladə hallar orqanlarına məlumat verir;
- meteoroloji, hidroloji, seysmoloji, tibbi, sanitar-epidemioloji və digər xidmətlərdən

vəziyyətdəki dəyişiklikləri proqnozlaşdırmaq, şəxsi heyətin və əhalinin mühafizəsi vasitələrindən və qüvvələrdən istifadə ilə bağlı vaxtında qərar qəbul etmək üçün daima məlumatların alınmasını təşkil edir, fövqəladə hadisə rayonunda zəruri hallarda kəşfiyyatın aparılmasını təşkil edir;

- vəziyyətin mürəkkəbləşdiyi rayonlara qüvvə və vasitələrin hərəkət vaxtını və qaydasını təyin edir, rabitəni təşkil edir və məlumat mübadiləsi aparır;
- əməliyyat qərargahının, idarəetmə məntəqəsinin işini təşkil edir, əməliyyat ehtiyatının tərkibini və sayını müəyyən edir;
- fövqəladə hallarda şəxsi heyətin, texniki və xüsusi vasitələrin hazırlığını yoxlayır, qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsi ilə bağlı şəxsi heyətin təlimatlandırılmasını həyata keçirir;
- əməliyyat qərargahının fəaliyyətini daim nəzarətdə saxlayır, xidmət və bölmələrin, xüsusi qrupların rəhbərlərini dinləyir və növbəti mərhələ üçün tapşırıqlar verir;
- qonşu rayonların icra hakimiyyəti və fövqəladə hal orqanları, Dövlət Təhlükəsizliyi Xidməti, Silahlı Qüvvələrin və Daxili Qoşunların Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən birləşmələri və hissələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir;
- əməliyyat şəraitindəki dəyişikliklərə reaksiyavermə tədbirləri barədə qərar qəbul edir.

***Vəziyyət normallaşdıqca daxili işlər orqanının rəhbəri borcludur:***

- daimi yerləşmə yerlərinə qüvvə və vasitələrin çıxarılmasını həyata keçirir, gündəlik fəaliyyət rejimində xidmətin aparılmasına şəxsi heyətin tədricən keçirilməsini təşkil edir;
- qanunun aliliyini təmin edir, təxliyə olunan əhalinin daimi yaşayış yerlərinə qayıtmalarına köməklik göstərilməsini təşkil edir;
- fövqəladə halların nəticələrinin aradan qaldırılmasına cəlb olunan şəxsi heyətin, eləcə də gücləndirmə üçün ayrılmış qüvvələrin fəaliyyətinə qiymət verir, lazım gəldikdə bu sahədə qazanılmış təcrübə və aşkar olunan nöqsanlar nəzərə alınmaqla əməliyyat planında düzəlişlər edir;
- fövqəladə halların nəticələrinin aradan qaldırılması üzrə əməliyyatın başa çatması barədə yuxarı daxili işlər orqanına məlumat veirir.

## 6. Fövqəladə hallarda post-patrul xidməti naryadlarının təcili hərəkətləri

***Yanğın zamanı:***

- yaxınlıqda olan yanğın təhlükəsizliyi şöbəsinə, polis şöbəsinin növbətçisinə dərhal məlumat verir, zərurət yarandıqda əhalini xəbərdar edir, yanğının söndürülmə-sini, adamların və əmlakın təxliyə olunmasını təşkil edir;



- yanğının səbəblərini müəyyən edir, yanğın yerini mühafizəyə götürür, şübhəlilərin və hal şahidlərinin saxlanılması üzrə tədbirlər həyata keçirir;
- yanğın yerində zərərçəkənlər aşkar edildikdə tibbi yardım çağırır və ya onları müalicə müəssisəsinə göndərir, yanan binaya yanğınsöndürənlərdən başqa digər şəxsləri buraxmır.

***Partlamamış aviasiya mərmiləri, sursatlar, minalar, partlayıcı vasitələr, eləcə də əhali üçün təhlükəli olan radioaktiv, kimyəvi və digər maddələr aşkar edildikdə:***



- hadisə barədə növbətçi hissəyə məruzə edir və təhlükə zonasını əhatə etmək üçün tədbirlər görür, adamları və nəqliyyat vasitələrini hadisə yerinə buraxmır;
- hadisə yerinə qəza və təcili xilasetmə xidmətlərini çağırır, təhlükəli zonadan adamların təxliyə olunmasına köməklik göstərir.

***Qəza, fəlakət və faciə yarandıqda:***

- növbətçiyə və vəzifəli şəxslərə hadisə barədə məruzə edir;
- adamların və əmlakın xilas edilməsi, zərərçəkənlərə yardım göstərilməsi və onların müalicə müəssisələrinə göndərilməsi ilə bağlı tədbirlər həyata keçirir;
- yanğının söndürülməsini təşkil edir;
- hadisənin nəticələrinin aradan qaldırılmasına cəlb olunan qüvvələrdən başqa, kənar şəxsləri hadisə yerinə buraxmır;
- istintaq aparan şəxslər gələnədək hadisə yerini mühafizə edir;
- zəruri hallarda əhalinin, nəqliyyat və digər vasitələrin fövqəladə hadisənin nəticələrinin aradan qaldırılmasına cəlb olunmasını təşkil edir.

***Daşqın və subasma zamanı:***



- növbətçi hissəyə məruzə edir, subasma təhlükəsi barədə zərər dəymiş vəzifəli şəxslərin və əhalinin xəbərdar edilməsinin həlli yollarını araşdırır;
- adamların və əmlakın xilas edilməsi ilə bağlı tədbirlər həyata keçirir, zəruri hallarda əhalinin (ilk növbədə uşaqlar, qadınlar, xəstələr, qocalar) və əmlakın təxliyə edilməsini təşkil edir və zərərçəkmişlərə yardım göstərir;
- subasma ərazilərindən insanların təxliyəsi zamanı qayda-qanunu təmin edir, sahibsiz qalmış əmlakın qorunmasını təşkil edir.

***Epidemiyalar və epizootiyalar zamanı:***

- xəstəlik faktları barədə növbətçini və tibb müəssisəsinin vəzifəli şəxslərini xəbərdar edir;
- şəxsi təhlükəsizlik tədbirlərinə riayət edir, insanların, nəqliyyat vasitələrinin hərəkətini, eləcə də mal-qaranın yoluxmuş əraziyə sürülməsini məhdudlaşdırır;
- su təchizatı mənbələrinin, ehtimal olunan infeksiya ocaqlarının qorunmasını təşkil edir, insanların kütləvi toplaşdığı yerlərdə ictimai asayişin təmin olunmasını həyata keçirir.

***Zəlzələ zamanı:***



- yaranmış vəziyyəti aydınlaşdırır, növbətçi hissə, digər polis əməkdaşları və naryadları arasında rabitə əlaqəsi yaradır;
- nəqliyyat vasitələrinin və piyadaların hərəkəti üçün təhlükəli yerləri işarələyir;
- adamların və əmlakın xilas edilməsi ilə bağlı tədbirlər həyata keçirir, zərərçəkmiş insanlara yardım göstərir və onların səhiyyə müəssisələrinə göndərilməsinə kömək edir, eləcə də yanğının qarşısının alınması və söndürülməsi üzrə tədbirlər həyata keçirir.

***Qasırğa, çovğun və qar uçqunu zamanı:***

- vəziyyət barədə növbətçi hissəyə məruzə edir, nəqliyyat vasitələrinin və piyadaların hərəkətinə müşahidəni gücləndirir, sürücüləri və vətəndaşları təhlükə haqqında, eləcə də zəruri ehtiyat tədbirləri barədə xəbərdar edir;
-köməksiz vəziyyətdə qalmış zərər çəkmiş insanlara yardım göstərir;
- yolların və küçələrin, eləcə də qar altında qalmış evlərin təmizlənməsinə əmək qabiliyyətli əhalinin və nəqliyyat vasitələrinin səfərbər olunmasına köməklik göstərir.

## 7. Fövqəladə hallar zamanı Daxili Qoşunların fəaliyyəti



Daxili işlər orqanları sistemində Daxili Qoşunlar xüsusi yer tutur. Daxili Qoşunlar mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsinin həyata keçirilməsində, ictimai asayişin mühafizəsində, kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin təmin olunmasında, kütləvi iğtişaşların qarşısının alınmasında, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələrin yerinə

yetirilməsində yaxından iştirak edir. Fövqəladə hallar zamanı Daxili Qoşunların əsas vəzifələri aşağıdakılardan ibarətdir:

***<u>Qəza, bədbəxt hadisələr, yanğın və təbii fəlakətlər zamanı:</u>***

- qəza, bədbəxt hadisə, yanğın və təbii fəlakət rayonunun əhatə edilməsində, habelə bu rayonda məhdudlaşdırma və təcridetmə tədbirlərinin keçirilməsində daxili işlər orqanlarına köməklik göstərir;



- fəlakət rayonunda dövlət və digər obyektlərin, habelə sahibsiz qalmış əmlakın mühafizə altına götürülməsində iştirak edir;
- yanğının söndürülməsi, əhalinin, dövlət və ictimai əmlakın xilas edilməsində iştirak edir;
- fəaliyyət rayonunda ictimai asayişin qorunması, qarovul və post-patrul xidmətinin aparılmasını təşkil edir.

***<u>Epidemiyalar və epizootiyalar zamanı:</u>***

- rejim-karantin rayonunda sərhəd boyunca təcridetmə və məhdudlaşdırma tədbirlərinin keçirilməsində iştirak edir;
- xüsusi müalicə müəssisələrinin, hospital və xəstəxanaların, bakterioloji laboratoriyaların təcrid edilməsini, suburaxıcı qurğuların və digər mühüm obyektlərin mühafizəsini təşkil edir;
- karantin rayonuna başqa yerdən gələn vətəndaşların təxliyəsində iştirak edir;
- rejim-karantin rayonunda ictimai asayişin qorunmasında iştirak edir.



Qəzalar, bədbəxt hadisələr, yanğın və təbii fəlakətlər zamanı adamların xilas edilməsi, sahibsiz qalmış əmlakların mühafizəsi, ictimai asayişin qorunması üçün təxirəsalınmaz tədbirlərin görülməsində daxili işlər orqanlarına köməklik göstərilməsi üçün əhatəetmə, mühafizə axtarma, patrul və ehtiyat qruplarından ibarət qüvvə və vasitələr qruplaşması yaradılır.

***<u>Əhatəetmə qrupu</u>*** qəza, bədbəxt hadisə, yanğın, təbii fəlakət olan əraziyə (rayona) kənar şəxslərin və nəqliyyat vasitələrinin keçməsinin məhdudlaşdırılması üçün təyin olunur.

***<u>Mühafizə qrupu</u>*** mühüm dövlət, habelə əhalinin həyat fəaliyyətini və nəqliyyatın işini təmin edən obyektlərin mühafizəsi üçün təyin olunur. Bu tapşırıqların yerinə yetirilməsi üçün mühafizə qrupundan qarovullar ayrılır.

Qorunan binaların girişində nəzarət buraxılış məntəqəsi (NBM) yaradılır. Adamların və nəqliyyat vasitələrinin mühafizə olunan NBM-dən buraxılmasına yalnız obyektin rəhbərliyi tərəfindən bu məqsədlər üçün səlahiyyət verilmiş nümayəndənin iştirakı ilə və ya onun şəxsi göstərişi ilə icazə verilir. Qarovul rəisi NBM-dən keçən şəxslərin qeydiyyatını aparır.

***<u>Axtarma qrupu</u>*** qəza, bədbəxt hadisə, yanğın, təbii fəlakət olan ərazidə (rayonda) zərərçəkmiş vətəndaşların xidməti itlərlə axtarılması və onlara ilk tibbi yardım üçün təyin olunur.

***<u>Patrul qrupu</u>*** daxili işlər orqanının əməkdaşları ilə birlikdə qəza, bədbəxt hadisə, yanğın, təbii fəlakət olan ərazidə (rayonda) ictimai qaydanın saxlanması üçün təyin olunur.

***<u>Ehtiyat qrupu</u>*** qəflətən qarşıya çıxan tapşırıqların yerinə yetirilməsi üçün təyin olunur.

Qəzalar, bədbəxt hadisələr, yanğın və təbii fəlakətlər zamanı adamların xilas edilməsində, təxirəsalınmaz tədbirlərin və işlərin görülməsində Fövqəladə Hallar Nazirliyinə köməkliyin göstərilməsi üçün qoşunların (hissənin) şəxsi heyəti də iştirak edir.

## 8. Xüsusi şəraitdə nizami polis bölmələrinin və yol-patrul xidmətinin təcili fəaliyyətləri

***Avtomobil yolunda və ya ona bitişik ərazidə yanğın baş verdikdə:***

- yol-patrul xidməti inspektoru dərhal növbətçi hissəyə və imkan olduqda Fövqəladə Hallar Nazirliyinə məlumat verir, mümkün olduqda yanğının söndürülməsi üçün tədbirlər görür;




- nəqliyyat vasitələrinin yanğın baş verdiyi ərazidən kənarlaşdırılmasını və yanğınsöndürən avtomobillərin maneəsiz hərəkətini təmin edir.

***Təbii fəlakətlər, epizootiyalar, irimiqyaslı qəzalar, yanğın və digər fövqəladə hadisələr zamanı:***

- yol polisi əməkdaşları əməliyyat və qəza-xilasetmə xidmətlərinin avtomobillərinin maneəsiz keçməsinə yardım edir;
- ictimai asayişin bərpa olunması və qorunması, insanların və əmlakın xilas edilməsi ilə bağlı tədbirlər həyata keçirir;
- yol-patrul xidməti inspektoru yol hərəkətində yaranmış maneələr barədə növbətçi hissəyə məruzə edir, təhlükədən qorunmaq üçün sürücülərin xəbərdar olunmasını təmin edir;
- zərurət yarandıqda müvəqqəti olaraq hərəkəti məhdudlaşdırır və ya qadağan edir, nəqliyyat vasitələrini təhlükəli sahənin yanından keçməklə istiqamətləndirilməsini təşkil edir;
- zərərçəkənlərə yardımın göstərilməsi və sahibsiz qalmış əmlakın mühafizəsi ilə bağlı tədbirlər həyata keçirir.

## Nəticə:

**T**əbii fəlakətlərin, texnogen mənşəli iri qəzaların, nəqliyyat faciələrinin, epidemiya və epizootiyaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması zamanı daxili işlər orqanları tərəfindən ictimai asayişin qorunması üzrə xüsusi tədbirlər həyata keçirilir. Bu tədbirlər öz məzmununa görə hər bir müəssisə və təşkilatın, eləcə də vətəndaşların üzərinə əlavə vəzifələr qoyur. Belə inzibati qabaqlayıcı tədbirlərə əhalini əmək və nəqliyyat vəzifələrinin yerinə yetirilməsinə cəlb etmək, karantin tətbiq etmək, təşkilatları və vətəndaşları inzibati qaydada sıxlaşdırmaq tədbirləri və s. daxildir.



Yekunda qeyd edək ki, təbii fəlakətlərin və digər fövqəladə halların əhalinin həyat və sağlamlığına, habelə müəssisə və təşkilatların fəaliyyətinə mənfi təsirinin yumşaldılması istiqamətində tədbirlərin vaxtında görülməsi, mövcud qüvvə və vasitələrdən bacarıqla istifadə edilməsi daxili işlər orqanlarına fövqəladə hallar zamanı ictimai asayişin və ictimai təhlükəsizliyin təmin olunması vəzifələrini uğurla həll etməyə imkan verir.